# Daşkənddə beynəlxalq simpoziumda

**AMEA-nın Rəyasət Heyəti aparatının əməkdaşı, AMEA Folklor İnstitutunun doktorantı İlahə Əsgərova 6-8 oktyabr tarixlərində Özbəkistanın Daşkənd şəhərində keçirilən "Türk dünyasının yeniləşmə prosesləri: Türk dünyasında Cədidçilik" adlı III beynəlxalq simpoziumda iştirak edib.**

Türkiyənin Egey Universitetinin və Özbəkistan İqtisadiyyat və Pedaqogika Universitetinin birgə təşkil etdiyi bu beynəlxalq simpoziumda Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Rusiya Federasiyası, Şimali Kipr Türk Respublikası və digər ölkə universitetlərinin rektorları, alimləri, professorları və tədqiqatçıları iştirak edib.

Panel müzakirəsində AMEA-nın Rəyasət Heyəti aparatının əməkdaşı İlahə Əsgərova "Cədidçilik kontekstində Qarabağ folklorunda yer adları: milli kimliyin xalq yaddaşında rekonstruksiyası" adlı məruzə ilə çıxış edib.



İlahə Əsgərova təqdim olunan məruzənin ən mühüm hissələrində Qarabağ folklorundakı "Cıdır düzü", "Qırxqız", "Fatma ananın hanası", "Qaraçuxa", "Xarıbülbül" və "Topxana meşəsi" kimi əfsanə və rəvayətləri təhlil edilərək, onların milli kimlik dəyərlərini necə ehtiva etdiyini vurğulayıb və Cədidçilik ideallarına hansı yönlərdə uyğun gəldiyini şərh edib.

Elm .- 2025.- 24 oktyabr (№33).- S.8.